(əvvəli ötən sayımızda)

**- Artıq gənclərin arasında da istedadlı aktyorların sayı artmaqdadır. Elə misal olaraq Hikmət Rəhimovun adını çəkə bilərəm, özü də məhz Əliabbas müəllimin tələbəsi olub, ən axırıncı qrupunun tələbəsi...**

- Mən inanıram ki, Azərbaycan teatrında istedadlı aktyorlar var, olacaq da. Vaxtilə atam da öz müəllimləri haqqında müqəddəs insanlar kimi danışıb. Onun tələbələri də bu gün onun haqqında çox hörmətlə danışırlar, onun sənətini, adını hörmətlə yaşadırlar. Atamın tələbələri çox olub. Mən Azad Şükürovun, Abbas Qəhrəmanovun, Rövşən Kərimduxt, Mətləb Abdullayev, Aslan Şirin, Kazım Həsənquliyevin adlarını çəkmək istəyirəm. Sizin qrupdan da Cəmilə Əzimovanı tanıyıram, qiraət müsabiqəsində birinci yeri tutdu, doğrudur sonra televiziya sahəsini seçdi. Hikmət Rəhimovu da tanıyıram, Azdramadakı yanda hələ də çöhrələrinə təbəssüm qonur. Atam onu sevməyən aktyorların da adlarını həm fəxri ad, həm də "Prezident mükafatı" verilənlərin siyahısına yazırdı.

**- Əsas odur ki, teatrda qayda-qanun yaratdı. Rəhmətlik Həsənağa Turabovun xəstəliyindən və etibarından süni istifadə edib teatrı başqa-başqa adamlar idarə edirdilər... Artıq tamaşalardakı rolları kimlərinsə "daydayları"nın sifarişi, yaxud başqa-başqa səbəblərdən deyil, sadəcə aktyora oyununa görə verilməyə başlanıldı. Onun dövründə rejissorun rüşvətlə rol verməsi yığışdırıldı.**

- Siz hadisələrin içində olduğunuz üçün bunları daha yaxşı bilərsiz. Atam hec vaxt bu barədə danışmayıb. Lakin direktor olması onu yorurdu. Çünki o aktyor kimi fəaliyyətini davam etdirdi. Nə qədər yorğun olsa da öz sevimli peşəsindən əl çəkmirdi. Yəni öz işini həmişə vicdanla yerinə yetirirdi. Mən sevinirəm ki, nə yaxşı belə bir atam olub. Mən bununla fəxr edirəm. Bu vaxta qədər həmişə onun adını yanımızda hörmətlə çəkiblər. Sizə maraqlı bir məqamı da demək istəyirəm. Təsadüfən tanış olduğum qadınlar biləndə ki, Əliabbas Qədirovun qızıyam, əksəriyyəti vaxtilə onu sevdiklərini etiraf edirlər. Atam o qadınların gizli sevgisi olub...

# Gültəkin Novruzova: "Biz həmişə qardaşımıza həsəd aparırdıq ki, anamla premyeralara gedir"

## Atam bizdə incəsənətə maraq yaranmasın deyə uşaq olanda təkcə qardaşımı özü ilə tamaşalara, ya da məşqlərə aparırdı



**- Qarşılıq verdikləri də olubmu?**

- Xeyr, bunu əminliklə deyə bilərəm. Atam anamı çox sevib, ona yazılan məktubların hamısını evə gətirib, anamın yanında oxuyurdu... Bilirsizmi, atamla anam xalauşağı olublar. Amma ana babam qızını atama aktyor olduğuna görə vermək istəmirdi... Atam isə iki ayağını bir başmağa dirəyib ki, varsa da, yoxsa da Gülbahar mənim olmalıdır... Ağamoğlan babam da atamın təkidini görüb yumşalıb. Atam anamdan 5 yaş böyük idi, ona görə də ölümdən söz düşəndə anama deyirdi ki. mən ölsəm, sən bu dünyada çox ləngimə, ən uzağı 6 aydan sonra özünü mənə yetir...

**- Amma ananınızın vəfatının düz 6 ayında özünü ona çatdırdı...**

- Bəli, sentyabrın 3-də anam rəhmətə getdi, atam da martın 8-də gözlərini əbədi yumdu. Anam atamın xəstə olduğunu, sağalmayacağını bilirdi, ona görə də, içində dərd çəkə-çəkə özü xəstəliyə tutuldu. Atam ondan sonra 6 ay yaşadı. Özüm anamın məzarı üstündə şahidi olmuşam, deyirdi ki, 60 illik yubileyi keçirim yanına gələcəyəm. Ümumiyyətlə, atam verdiyi sözə həmişə əməl edən olub. Bir maraqlı məqamı sizə demək istəyirəm. Atamgil tələbə yoldaşları ilə belə razılaşıblar ki, kimin ilk övladı oğul olsa adını Ülvi, qiz olarsa Ülviyyə qoysunlar. Misal üçün, Yaşar Nurinin qızının adı Ülviyyədir. Yaxud Rasim Balayevin ilk oğlunun adı Ülvidir. Qardaşım anadan olanda babam onun adını İlham qoyub, atam da onun sözündən çıxa bilməyib. Ona görə də bacımın oğlu anadan olanda onun adını atam Ülvi qoydu.

**- Övladları onun sənətini davam etdirmədilər. Bəs, nəvələrdən bu sənətin davamçısı yoxmu?**

- Nəvələrindən qardaşımın Fidan və mənim qızım Səfurə Mədəniyyət və İncəsənət Universitetinin "Rejissorluq" fakültəsini bitirib. Diplom işi kimi universitetdə atamın 70 illiyinə həsr olunan tədbir keçirdi. Onu da deyim ki, əslində Səfurəni elə atamgili böyüdüblər. Çünki o, anadan olanda mən tələbə idim, demək olar ki, onu anamla atam saxlayıb. Mən həqiqətən də şad oldum ki, qızım babasının əməyinə laqeyd qalmadı və onun adına layiq bir tədbir hazırladı.

tamaşalarına da baxmışam. Sizin uşaqlardan Elnur Qədirov da bu gün Akademik Milli Dram Teatrında aktyor kimi fəaliyyət göstərir. Sevinirəm ki, atamın yolunu ləyaqətlə davam etdirirsiniz.

**- Qismət elə gətirdi ki, Əliabbas müəllimin vəziyyəti elə bizim dərsdə ağırlaşdı. Tələbələrinin arasında onu ən axırıncı mən görmüşəm. Məndən incimişdi, "Xurşud Banu Natəvan" tamaşasını sərt tənqid etmişdim. Qorxusundan bir həftə dərsə getmədim... Bəlkə də taleyin iraoniyası idi ki, vəfatından 5-6 saat əvvəl onun yanında tələbələrindən yalnız mən olmuşam. Mən işdən çıxıb Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutuna onun yanına getdim. Onda İlham Namiq Kamal, Ramiz Əzizbəyli də yanında idi. Bir az zarafatlaşdılar, birlikdə yaşadıqları macəralardan danışıb güldülər... Əliabbas müəllim bəzi həmkarlarını orda parodiya etdi. Birdən əlini başına apardı və özündən getdi. Səhər Hikmət mənə zəng etdi ki, "Kişi keçinib"...**

- Sizdən sonra vəziyyəti ağırlaşdı, onu təcili Mərkəzi Klinikanın Reanimasiya şöbəsinə köçürdülər, səhərəyaxın keçindi.

**- Gültəkin xanım, Əliabbas müəllim direktor olandan sonra onun sənət yoldaşları arasında düşmənləri çoxaldı. Mən özüm "Ölülər" tamaşasının məşqində rəhmətlik Səyavuş Aslanın onunla mübahisəsinin şahidi olmuşam. S.Aslan rejissor Mərahim Fərzəlibəyova deyirdi ki, "Nədi, durektordu deyə ona duxun çatmır söz deməyə, məndə "oşibka" axtarırsan..." Əliabbas müəllimin bunu sakitcə müşahidə etməsi bizə təəccüblü gəlmişdi. Çünki bizim tanıdığımız Əliabbas Qədirov onun cavabını verməli idi, özü də samballı cavabını. Biz bilirdik ki, kimlər onunla düşmənçilik edir, kimlər ondan danos yazır. Amma maraqlıdır ki, heç kimə baş qoşmadı, bircəciyini də işdən çıxarmadı.**

- Əslində bu hərəkətin bircə adı var- qısqanclıq. Onun bir dəqiqə dincəlməyə vaxtı yox idi. Teatrda çoxsaylı rollar, filmlər, dublyaj, üstəgəl radio və televiziya verilişləri. Onun vaxtilə aparıcılıq etdiyi "Komediyalar aləminə səyahət" verilişini insanlar haxırla-

**İltifat HACIXANOĞLU**